# 85 yaşın mübarək, «Qəbələ»

## Doğma “Qəbələ” qəzeti

***Oktyabr ayında rayonumuzun ictimai, mədəni həyatında mühüm rol oynayan Qəbələ qəzetinin 85 yaşı tamam olur. Qəzetin ilk nömrəsi 1933-cü ilin oktyabr ayının ortalarında işıq üzü görmüşdür. Qəzet fəaliyyət göstərdiyi 85 il ərzində rayonda iqtisadiyyatın, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafında baş verən yenilikləri bacarıqla kütlələrə çatdırmışdır. Tarixin müəyyən anlarında qəzet müxtəlif təzyiqlərə, məhrumiyyətlərə rast gəlsə də öz yolunu şərəflə davam etdirmiş, bu günkü səviyyəyə gəlib çıxmışdır. Qəbələ qəzetinin keçmiş əməkdaşları, oxuyucuları redaksiyaya çox saylı məktub göndərərək ürək sözlərini bildirirlər. Qəzetimizin bu sayından başlayaraq həmin məktubların bəzilərini dərc edirik.***

Hər dəfə, gözəl, ürəkləri, könülləri heyran edən sirli, sehrli təbiətə malik, bir çox görkəmli şəxsiyyətlərin kiçik vətəni olan rayonumuza gələndə, məmnuniyyətlə, sevinclə, doğma “Qəbələ” qəzetinin redaksiyasına üz tuturam, onun yaradıcı kollektivi ilə görüşürəm. Tümen vilayətində yaşadığım illərdə də məzuniyyətə gəldiyim vaxtlarda belə olub. İndi uzun illərdir yenə Bakıda yaşayıram, daim bu ənənəyə sadiqəm. Bu yaradıcı, gülərüz insanlarla hər görüşümüz maraqlı, müzakirə və mülahizəlirimiz səmimi, mehriban keçməsilə yanaşı, məni xəyalən o uzaq məktəb dövrünə- əlçatmaz 1970-ci illərə aparır.

Həyat və fəaliyyətimin Rusiya dövründə də, bu gün də, ictimaiyyətimizdə baş verən müxtəlif məsələlərə dair yazılarımı “Qəbələ” qəzetində də çap etdirmişəm. Sevincimi, duyğularımı, bəzən də baş verən müxtəlif hadisələrlə bağlı üreyimdə olan narahatçılığı, qəlbən mənə çox yaxın olan, qələm məktəbim hesab etdiyim bu qəzetin əməkdaşları ilə bölüşmüşəm. İndi bizim “Qəbələ” qəzetinin yaranmasının 85-ci baharıdır. Fikrimcə, belə möhtəşəm yubileyin rayonumuzun bütün sakinlərinə aidiyyəti var. Axı, “Qəbələ” daim xalqın tərəqqi və səadəti naminə çalışmışdır. Bu işin başında duran isə qəzetin əzmkar, məqsədyönlü iş aparan yaradıcı kollektividir. Bəxtiyar Vahabzadənin sözləri yadıma düşür: “Gəlin, qəzetlərin hər nömrəsində məqalə və məlumatların altında atılmış imzalara hörmətlə baxaq. Onun müəlliflərinin bu şərəfli və çətin əməyinə görə onlara çoxsağol deyək”.

“Qəbələ”nin səksən beş ildə saralıb toz basmış qalaqlarını dəfələrlə vərəqlədikdən sonra mən tam əminliklə faktları, fikirlərimi oxucularla bölüşmək qərarına gəldim. Odur ki, tam əminliklə deyirəm; bizim “Qəbələ”nin əməkdaşları öz peşəkarlığı, zəhmətkeşliyi, maraqlı, oxunaqlı yazıları ilə bütün dövrlərdə təmənnasız hörmətə, ən xoş sözlərə layiq olmuşlar. Fikir verin, müharibədən əvvəlki kollektivləşmə, Ümumittifaq savadsızlıqla mübarizə kampaniyası dövründə (1923-1939), dəhşətli Böyük Vətən müharibəsi illərində, Stalinin vəfatından sonrakı “mülayimləşmə” şəraitində, 1988-ci ildən başlamış Ermənistanın xalqımıza, müstəqilliyimizə təcavüzü-Qarabağ müharibəsi və xalq hərəkatının başladığı ağır zamanda “Qəbələ”çilər öz işini Vətənin azadlığı, tərəqqisi, inkişafı naminə vaxtın, zamanın, yaranmış yem şəraitin tələblərinə uyğun qura bilmişlər. Təqdirəlayiq haldır ki, həyatımızın elə bir sahəsi yoxdur ki, “Qəbələ” qəzeti onu öz səhifələrində işıqlandırmamış olsun. Daim izləyicilər, maraqlananlar yaxşı bilirlər, bu dərginin səhifələrində iqtisadiyyatımızın, mədəniyyətimizin, ədəbiyyatımızın, tariximizin, elmimizin, təhsilimizin, səhiyyəmizin, kənd təsərrüfatının bütün sahələrinə dair materiallar dərc olunur. Əlbəttə ki, müasir dövrdə yeni yaranan sahələrlə, məsələlərlə bağlı, onların həllinə və problemlərinə dair yazılar ardıcıllıqla qəzetdə öz əksini tapır. Yaradıcı kollektiv müxtəlif illərdə, demokratikcəsinə öz oxucularına müraciət etmiş, onların mövqeyini uca tutmuşdur. Bunlar redaksiyanın “Bu, sənin qəzetindir” (“Qəbələ”, 20.05.1993) sərlövhəli müraciət-qeydlərindən də aşkar görünür: “Əziz oxucu! Sənsən bu qəzetin bəzəyi. Sən olmasan axı qəzet nəyə lazımdır'?

Qəzetin dayağının oxucu olması kəlamı çoxdan hamıya məlumdur. Qəzetimizin hər nömrəsi sizə göndəriləndə ürəyimizdən min bir narahatlıqlar keçir. Düşünürük ki, görəsən bu ağrılı-acılı dövrdə oxucuları bir azca da olsa ovundura bilirikmi? Onların qəlbinə azacıq da olsa yol tapa bilirikmi?...”

İndi mən, qeydlərimin əvvəlində xatırlatdığım kimi, qəlbimə daim yaxın olan “Qəbələ” qəzeti ilə əməkdaşlığımızdan söz açmaq istəyirəm. Ondan başlayım ki, mənim beş-altı yaşım olardı, evimizdə “Mübariz” qəzetinin nüsxələrini tez-tez görürdüm. Atam Hüseyn Məmmədov onları gözdən keçirib tanış olduqdan sonra nömrələrini səliqə ilə üst-üstə yığardı. Vaxtaşırı bu nüsxələri, görünür müxtəlif mövzularla bağlı, yenə araşdırar, lazım olan materialları tapıb istifadə edərdi. Yeri gəlmişkən, atam 1947-ci ildən, rayonumuzun komsomol komitəsinin birinci katibi olduğu vaxtdan bu qəzetlə əməkdaşlığını kəsməmiş, 1990-cı ildə təqaüdə çıxdıqdan sonra isə olduqca sıx əlaqə saxlamış, Bum qəsəbəsinin tarixinə, təhsilinə, ziyalılarına, adət-ənənələrimizə dair qəzetin səhifələrində onlarla geniş həcmli yazılar təqdim etmişdir. Mənsə bu qəzetlə əməkdaşlığa 1971-ci ildə başlamışam. Həmin vaxtdan “Gənc mexanizator” (“Qalibiyyət”, 11.08.1971), “Ballı nənə əməkdən ayrılmır” (24.05.1972) və b. kiçik yazılarım qəzetin səhifələrində dərc olunurdu. Tümen vilayətinin Nijnevartovsk şəhərində yaşadığım illərdə, günlərin birində doğma Qəbələm üçün lap darıxmışdım. Düşüncələrimi cəmləşdirib ağ vərəq üzərində cümlələri düzdüm bir-birinin ardınca. Əlyazmamı zərfdə, poçtla göndərdim qəzetimizin ünvanına. Bir müddət sonra redaksiyadan mənə məktub gəldi. “Tümendən məktub” rubrikası altında “Doğma diyarı düşünərkən” (“Qalibiyyət”, 10.01.1989) sərlövhəli məqaləm dərc olunmuş nüsxələri göndərmişdilər. Bundan bır-iki il sonra uzaq diyardan göndərdiyim qeydlər “Biz Azərbaycandanıq” rubrikası altında “Adımıza layiq” (28.05.1991) adı ilə çap olunmuşdu. Sibirdə cərəyan edən hadisələrə dair qeydlərimin birinci cümləsi belə başlayırdı: “Vətəndən çox-çox uzaqda yaşasaq da qəlbən öz torpağımıza yaxınıq”. Bundan sonra mən xidmətimi doğma Vətənə dəyişmək arzusu ilə yaşayır, istəyirdim ki, ermənilərin torpaqlarımıza təcavüz etdiyi bir vaxtda mən də fəaliyyətimi burda davam etdirim, müharibədə iştirak edim, çətin günlərdə xalqımızla bir yerdə olum. Bununla əlaqədar tez-tez Azərbaycana gəlməli olurdum. Qış günlərinin birində redaksiyaya gəldim. O zaman redaktor mərhum Əziz Əzizov idi. Xeyli söhbətləşdik. Əziz müəllim dedi ki, biz də qəzetimizin uzun illərin sınağından keçmiş dostu haqqında yazı versək yaxşı olar. Bir müddət sonra Bibixanım İsayevanın imzasilə “Torpaq səni səsləyir” (14.02.1992) sərlövhəli məqaləsi çıxdı. Əlbəttə, yaxın adamlarımın dəstək olması məni daha da ruhlandırdı. Bundan ay yarım sonra işim düzəldi, Qaradağ RPİ-də xidmətimi davam etdirməyə başladım, dəfələrlə paqon yoldaşlarımla çiyin- çiyinə hərbi əməliyyatlar gedən döyüş bölgələrində də olduq.

O ağır illərdə azacıq boş vaxtlım olanda qəzetlərlə də əməkdaşlıq edir, “Qəbələ: insanlar, talelər, ziyalılar” adlı kitab üzərində işləyirdim. Elə həmin nəşrin 1996-cı ildə çıxmış ikinci toplusunda “Qəbələ” qəzetinin tarixinə, əməkdaşlarına həsr olunmuş “Mənim qələm məktəbim-“Qəbələ” qəzeti” sərlövhəli məqalə də təqdim etmişəm. Otuz dörd səhifədən ibarət həmin qeydlərim dərginin tarixinə, əməkdaşlarına və onların yaradıcılığına həsr olunmuşdur. Bununla bilavasitə mənəvi borcumu yerinə yetirməyə çalışmışam. Həmin məqalədə belə məlumatlar da var: “Qəbələ” qəzeti 1933-cü ildə “Bolşevik mübarizi” adı altında nəşrə başlamış və 1953-cü ilədək - iyirmi il bu adla fəaliyyətini davam etdirmişdir. Qəzet 1953-1962-ci illərdə “Mübariz” adı ilə buraxılmışdır. 1963-1965-ci illərdə rayonların birləşməsi ilə əlaqədar Göyçayda (Ağdaşda çıxan “Əmək” qəzeti də daxil olmaqla üç rayonun bir qəzeti mövcud olub) ”Yeni həyat” adı ilə oxucuların ixtiyarına verilib. 1966-cı ildə rayonumuzda qəzet nəşri yenidən bərpa olunub və “Qalibiyyət” adı ilə çıxan rayon qəzeti 1990-cı ilin son aylarından “Qəbələ” adı altında həyatını davam etdirir”.

Düzdür, həyat davam edir, əməkdaşlar da, redaktorlar da dəyişilir. Amma “Qəbələ” qəzeti yaşayır, keçmişdən bizə maraqlı məlumatlar gətirdiyi kimi, gələcək nəsillərə də günümüzün həqiqətlərini çatdıracaq. Fəxarətlə bildirmək istəyirəm ki, bu gün də qəzetlə dostluğumuz davam edir. Onu da unuda bilmərəm ki, işıq üzü görmüş kitablarımın hər biri haqqında “Qəbələ”nin səhifələrində Əziz Əzizovun, Nadir Atakişiyevin, Miri Rəhimovun, Bibixanım İsayevanın və b. əməkdaşların imzaları ilə yazılar gedib.

Bu gün qəzetimizin redaktoru hörmətli Varis Yaqubovdur, təmənnasız dostluğumuz, əməkdaşlığımız yenə də davam edir. Belə bir unudulmaz vaxtda - “Qəbələ”nin 85 illik yubileyi ilə bağlı, hörmətli redaktoru, zəhmətkeş, istedadlı əməkdaşları, ən çətin anlarda belə, səmimiyyətini qoruyub saxlayan bu insanları ürəkdən təbrik edir, onların hər birinə möhkəm can sağlığı, səadət və şərəfli, gərgin zəhmət tələb edən peşələrində yeni-yeni uğurlar arzulayıram!

**Ramin MƏMMƏDOV,**
**yazıçı-publisist.**

# «Qəbələ» qəzeti rayonun ictimai-mədəni həyatının güzgüsüdür

Rayonumuzun ictimai, mədəni həyatında müstəsna yen olan, 85 yaşını bu gün təntənə ilə qeyd etdiyimiz “Qəbələ” rayon qəzeti şanlı və şərəfli bir yol keçib. Zaman baxımından sanki bir əsrə yaxın olan bu illər ərzində qəzetin gördüyü işlər doğrudan da təqdirəlayiqdir

1933-cü ilin oktyabrından "Bolşevik mübarizi", sonralar “Mübariz”, 1966-cı ildən “Qalibiyyət”, bu gün isə “Qəbələ” adı ilə nəşr olunan bu qəzet rayonda iqtisadiyyatın, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafında, habelə mütərəqqi metod və üsulların təbliğində hər zaman rayonun icra strukturlarına, ictimai təşkilatlarına yaxından köməklik göstərib. Onun səhifələrində ziyalıların, elm adamlarının, təcrübəli mütəxəssislərin həmişə maraqlı və aktual yazıları yer alıb. Rayonda aparılan mədəni-kütləvi işlərin elə bir mühüm sahəsi olmayıb ki, qəzet bu barədə öz tutarlı sözünü deməmiş olsun. O, özünün təbliğatçılıq və təşviqatçılıq rolunu həmişə təşkilatçılıq vəzifəsi ilə sıx rabitədə aparmağa səy göstərib.

“Qəbələ” mənim üçün ən əziz, ən doğma bir qəzetdir. İlk əmək fəaliyyətimə də 1967-ci ilin noyabrında bu qəzetin redaksiyasında ədəbi işçi kimi başlamışam. Kənd həyatından, təhsildən və səhiyyədən, ayrı-ayrı əmək adamlarından bəhs edən ilk yazılarım məhz o illərdə bu qəzetin səhifələrində dərc olunub.

Redaksiyada işlədiyim illərdə bu qəzetin, habelə onun o zamankı yaradıcı kollektivinin mənim həyatımda, eləcə də gələcək fəaliyyətimdə çox böyük rolu olub. Adicə bir faktı sizin nəzərinizə çatdırım: 1972-ci ilin əvvəllərində respublikamızın ən nüfuzlu qəzetlərindən sayılan, tirajı yarım milyon olan “Kommunist” qəzetində korrektor yeri boşalmışdı. Yaxın həmkarlarımdan birinin təklifi ilə məni bu yerə bir aylıq sınaq müddətinə işə götürdülər. Bir neçə gündən sonra qəzetin o zamankı redaktoru, mərhum Ağababa Rzayev məsul katibdən mənim mərkəzi qəzet üçün münasib kadr olub-olmadığımla maraqlananda o demişdi: Bişmiş kadrdır, əmrini elə bu gün verib işə götürmək olar! Sınaq müddətim başa çatmamış məni işə qəbul etdilər.

Bəli, rayon qəzetində öyrəndiyim qəzetçilik burada mənim əlimdən tutdu. Beləliklə, bu kollektivdə nə az, nə çox, düz 11 il çalışdım və bu dövrdə universiteti bitirdim, mənzil aldım, ailə qurdum və s.

Bu gün Bakıda yaşayıb işləsəm də mənə doğma olan “Qəbələ” qəzetini vaxt tapıb oxuyuram. Hər dəfə də hiss olunur ki, qəzet özünün ideya səviyyəsini yüksəltmək, məzmununu yaxşılaşdırmaq, müxtəlif janrlarda yazılar dərc etmək və səhifələrinin tərtibatını gözəlləşdirmək yolu ilə gedir.

Qəbələnin respublikamızda inzibati rayon kimi təşkil edildiyi vaxtdan 88 il ötür. Bu 88 illik tarixin 85 ili onun mətbu orqanı “Qəbələ” qəzetinin səhifələrində dərc olunmuş yazılarda, tarixi sənədlərdə, fotoşəkillərdə öz əksini tapıb. Qəzetin bu gün kitabxana və arxivlərdə saxlanılan saralmış nömrələri, əgər belə demək mümkündürsə bu rayonun tarixinin öyrənilməsində ən sanballı məxəz, ən gözəl tədqiqat materialıdır... Bu qəzeti yaşatmaq, ona həm mənəvi, həm də maddi dayaq olmaq, habelə onu gələcək nəsillərə ötürmək indi hər bir qəbələlinin borcudur.

Hörmətli redaksiya! Mən “Qəbələ” qəzetinin həm sabiq əməkdaşı, həm oxucusu kimi, çapdan çıxmasının 85 illik yubileyi münasibətilə onun təsisçilərini - Qəbələ Rayon İcra Hakimiyyətini, qəzetin yaradıcı kollektivini və oxucularını ürəkdən təbrik edirəm. Əminəm ki, Azərbaycan mətbuatının zəngin ənənələrinə sadiq qalan “Qəbələ” qəzeti bundan sonra da rayonumuzda aparılan quruculuq, abadlıq işlərində, məktəblərdəki təlim-tərbiyə məsələlərində, mədəniyyət, səhiyyə və digər sahələrdə, habelə əhalinin maariflən-dirilməsi yolunda rayonun icra strukturlarına, ictimai təşkilatlarına yaxından köməklik göstərəcək.

Qoy, bu qəzet yazarlarının qələmi iti, sözü kəsərli olsun!

**Akif HACIYEV,**
**Azərbaycan Memarlıq və İnşaat Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru.**